## Emin Piri



### Nişanlısı ölən qıza

(Ölənlər oyanıb çıxa qəbirdən
durub dirilərin qaza qəbrini.
gedəsən sevdiyin qəbrin üstünə
görəsən yazılıb:
bir zarafatdı.)

Gecələr məzardan qaçıb
Gəlib yuxunda dirilirmi?!
Ölülər yuxu görürmü?
Ayılıb suya deyirmi?

Bir üzük can verər barmağında
xınalı əllərin qana boyanar.
Yetim qalmış ovucların
Qucayar gecənin boş sükutunu.

Bir cüt göyərçin idi
köksünə sığan arzular.
Uçmağı bacarmadı-
qəfəs,
qanadsız arzular...

Gülər bu həyata, gülər hamıya
gülər işdə, küçədə.
gülər yalandan,
doğrudan ağlayar içində bu qız.

Pişik kimi azdırdığın dərdlərinin
sədaqəti var,
bilirəm.
Özünü unutmaq istəyib
Elə bir qış ayında...
Nə Venesiyanın suları söndürməz
ürəyinin yanğısını,
Nə Romanın qapıları
kəsməz dərdlərinin ayaq səsini.
Nə Sagrada Familiada, nə də Vatikanda
Tanrı eşitmir
eşitmir diriltmə dualarını.

Tək sən deyilsən,
Ölüm tarixinə doğum yazılan,
doğum tarixini Əzrayıl yazan.

Səndən böyüyəm.
Səndən çox kiçiyəm-
bəlkə də qocalmış ruhunun
nəvəsi yaşda-
A məndən gec doğulub,
tez böyüyən qız.

Ölülər yuxu görürmü?
Ayılıb suya deyirmi?
Gecələr məzardan qaçıb
Gəlib yuxunda dirilirmi?!

### "27 oktyabr"a

Səni indi sevdim.
Gülən gözlərinin ardındakı dərdlərini-
sevdim keçmişini.
Ürəyi sözlərində döyünən körpə səslərini-
sevdim gələcəyini.
Sevdim
el var, oba var-
daha demirəm nəyini sevdim.

Səni üzənin evi yıxılsın,
yıxılsın lap belə nəyi yıxılsın...
Fitili çəkilmiş qumbarayam
at məni
dərdlərinin səngərinə.

Bakıdan Naxçıvana kimi
bir türkü olaram qulaqlarında
ötüb Zəngəzur səmasından:
"əllərim alinə dəydikdən sonra
sonu istər ölüm olsun,
istər ayrılıq".

Səni səhər sevdim-
Azan gözləyən müəzzin kimi.
Səni günorta sevdim-
damla olmaqdan bezib
günəşə buxar kimi qaçmaq istəyən
Su damlası kimi.
Səni axşam sevdim-
demirəm necə sevdim...




Səni axşam
Səni günorta
Səni səhər sevdim,
Demirəm necə sevdim
Ay zalım sevdim səni.

### O...Yol...Yağış...Külək...

*(Xoşbəxtliyə bircə hərf çatmır:"O".*
*R. Əhməd)*

Buludlar dən səpər yerə,
yollar göyərçin kimi
dənlər yağışı.
"Bayatı şiraz" kimi evlər
dinlər yağışı.

Dodağı çatlamış asfalt küçələr
yağışı partdaq dodaqlarına çəkdiyi kimi
çəkərəm ciyərlərimə
mənə nəfəs verən öpüşlərini.

Bir yağış damlası olaram
qoparam buludların bətnindən saçlarına...
çırparsan tellərini
düşərəm ovuclarına.
Qaldır əllərini dodaqlarına:
nəfəs ver, isit məni...

Bir külək olaram.
Sonra...
Sonra dəcəl uşaqlar kimi
Qapını döyüb qaçaram.
Açarsanmı qapını?
Açarsanmı ürəyini?

Boya kimi çəkər
dodaqlarına
bir dünyalıq çəhrayı təbəssümü.

Çırpar,
çırpar buludlar yerin başına.
Zərbədən yıxılan yollar,
sərilər ayaqların altına.

Ürəyim yeriyər çəkmələrinlə
dənlər yerişinin addım səsini.
İndi pozacaq iş sükutunu
gecələr addımlayacaq "əsmər yuxum"da.

O yağış mənəm,
O külək mənəm,
O yol mənəm.
O mənəm.
O...
O..
O.

### Zabitin Naxçıvan duaları

Sənsiz-
Azərbaycandan ayrı düşmüş
Naxçıvanam indi.

Əllərim sənə açılmış Zəngəzurdu
kəsilmiş, oğurlanmış əllərim.

De:
-Bu əllərsiz necə qucaqlayım səni?!

Söylə:
-kimə verəcəksən bu kəsilmiş əllərimi?
-yad ürək-ölkələrə?!

Ya da gözlə...
Əllərimi tapıb gəlirəm...

Gözlərimin nurunu aparan
savaş deyil,
qəhvəyi gözlərindən doğan
"Qara günəş"di.
İndi ola bilirsənsə,
əsa ol-
bu əlsiz, kor bədənə.

Sənə eşqim bir az savaş,
bir az sülhdü.
Bir az sevgi,
bir az nifrətdi.
Bağışla,
bir az qan,
bir az da göz yaşı axacaq.

### Orda bir uşaq öldü

*(Zəlzələ qurbanı "unudulmuş" uşaqlara)*

Orda bir uşaq ağlayır-
Suriyada
zəlzələ dağıntıları altında.
kar olduq kasıb ölkənin-
kasıb uşaq səsinə.

Orda bir uşaq imdad dilədi
sərhədləri aşan "xeyirxah təyyarələr"
"görə bilmədi" xəritədə bu kəndi.
onu eşidə bilmədi "8 milyard pafos".

Orda bir uşaq ölür
şeytan övladı hislərimizi.
aldıq bir ölkənin qisasını
daşlar altında yatan uşaqdan.

Orda bir uşaq ağladı.
Orda bir uşaq imdad dilədi.
Orda bir uşaq öldü.
Kasıb ölkənin kasıb mələyi.

### "O"na məktub

Salam, torpaq adam!
Burda həyat
gözlərinin rəngi kimi tez dəyişir.
Əsasən qəhvəyi,
ya da qara.

Burda işimizi sorsan;
"imitasiya".
ya da anlayacağın hədəf taxtası.
Arada mərmilər kiminsə sığallayır,
ya da qışqırırır
hansısa ananın yuxusunda.

Göydə mərmilərlə toqquşur
anamızın duaları.

Gördüm;
"İki balam var,
Ölmək istəmirəm,
Ölmək istəmərəm" – deyən əsgəri.
Gördüm gözlərində
hələ doğulmamış
körpəsinin ürək çırpıntılarını.
Utandım,
Utandıq.
Baxmadım daha o gözlərə
üz-üzə gəlməməkçün o uşaqla.
mən utandım
biz utandıq.
Bəlkə o uşaq da utandı bizdən.
Getdik,
o uşağı baş-başa qoyduq atasıyla.
utandıq...
getdik...
Biz utandıq o gözlərdəki uşaqdan
o uşaq utandı bizdən.
amma atası utanmadı,
utanmadı...
Ən əzizinin, sevdiyinin
yanında olmasını istəmədiyin yerdi.

Bir əsgərim var.
Su gətirəndə
pulemyot gülləsi öpdü dizini.
İndi onu görəndə dizlərim ağrayır.
Susuzluğumuz yatmadı
mayorumuzun ürəyində sərinlədi
İstidən ürəyi sıxılan bir düşmən mərmisi.
Axı, biz su istəmişdik,
qan yox.
Bəlkə bura Füzuli deyil,
Kərbəladır, xəbərimiz yox?!

Oğullar döyüşür...
Analar yaralanır,
analar şəhid olur.
O oğlanın cəbhədə itən
ayaqlarını görərsən
ağşayan o anada.
Gözlərini itirən zabitin gözlərini görərsən
göz yaşı quruyan o ananın yanaqlarında.
O şəhidi görərsən
oğlunun məzarında başdaşına
dönən anada.

Havada rəqs edən güllələrdən
daha dəcəldir barmaqların.
O güllələr mənə xatırladır
xəyallarımı qıdıqlayan barmaqlarını.

Bilirəm, heç inanmırsan
görmədən, bilmədən
şəkillərdən sənə aşiq olduğuma.
Bilirsən, heç bu torpaqları da
görməmişdim...